# UNEC-in 95 illiyinə həsr edilmiş VII İqtisadiyyat və İdarəetmə Sahəsində Tədqiqatçıların Beynəlxalq Konfransı (ISCEMR-2025)

**12-14 İyun 2025**

**Bakı / Azərbaycan**

**BAKI-2025**

# Konfransın panelləri

## I Panel

## Mövzu: COP-29 Azərbaycan töhfəsi: İqlim dəyişikliyi və maliyyələşdirilməsi, resurslardan səmərəli istifadə




Məlum olduğu kimi COP-29 Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişikliyi üzrə Konfransı 2024-cü ildə ölkəmizdə baş tutdu və bu tədbir iqlim dəyişikliyinə qarşı mübarizə üçün mühüm əhəmiyyətli nəticələrlə yekunlaşdı.

Sözügedən nəticələri nəzərə alaraq, konfransın birinci panelində müvafiq dövlət qurumlarının, beynəlxalq nüfuzlu ekspertlərin və iş dünyası nümayəndələrinin iştirakı ilə ölkəmizdə və dünyada karbon emissiyalarının azaldılması, təmiz enerji mənbələrinə keçidin sürətləndirilməsi, bərpa olunan enerji sektorunun inkişafı və karbon texnologiyalarının tətbiqi istiqamətində cari trendlər və gələcək perspektivlər ətrafında müzakirələr aparılacaqdır.

ISCEMR

# II Panel

## Mövzu: Dairəvi iqtisadiyyatın drayverləri: Rəqəmsal transformasiya və dayanıqlı ekosistem




Konfransın ikinci paneli müasir dövrdə qlobal ekoloji problemlərin həllində mühüm təsir vasitəsi hesab edilən rəqəmsal transformasiyanın dayanıqlı ekosistemlə əlaqəsinə həsr olunacaqdır.

Rəqəmsal transformasiya rəqəmsal alətlərdən istifadə edilməklə iqtisadiyyatda, cəmiyyətdə və ətraf mühitdə dəyişikliklər yaratmağı hədəfləyir. Bu yanaşma dayanıqlı ekosistemlərin qurulması və qorunması ilə sıx əlaqəlidir.

Paneldə ağıllı şəbəkələr (smart grids), enerji istehsalının və paylanmasının optimallaşdırılması və bərpa olunan enerji mənbələrindən (günəş, külək, hidroenerji) istifadə imkanları müzakirə ediləcəkdir.

Konfransın ilk günündə təşkil olunacaq hər iki paneldə yerli və xarici mütəxəssislərin iştirakı ilə təqdimatlar olacaq və suallar cavablandırılacaqdır.

Alternativ enerji, yaşıl investisiyalar, təkrar emal və dairəvi iqtisadiyyat, davamlı inkişafın təmin olunması, yaşıl istehsal və yaşıl istehlak kimi mövzularda müzakirələr həm ölkəmiz, həm də bu sahədə tədqiqat aparan və çalışan insanlar üçün böyük töhvələr verə bilər.

# Online Workshop panelləri

Hər il olduğu kimi, bu konfrans çərçivəsində də ölkəmizdə və dünya gündəmində olan mövzularda workshoplar təşkil olunacaq. Konfrans çərçivəsində yerli və xarici universitetlərin tədqiqatçıları, özəl və dövlət sektoru qurumlarının, eyni zamanda beynəlxalq qurumların ekspertlərinin iştirakı ilə 8 workshopun keçirilməsi nəzərdə tutulmuşdur.

Həmin workshoplarda xarici spikerlərin sayının daha da artırılması və praktiki biliklər qazandırma prinsipinin daha ön plana çıxarılması nəzərdə tutulur.



# Nəşr olunacaq kitablar

Məlumdur ki, istər ümumbəşəri problemlərə, istərsə də müxtəlif elm sahələrinə aid ana dilimizdə ədəbiyyat təminatı problemi öz aktullağını hələ də saxlamqdadır. Bu problemin həllinə töhvəmizi vermək məqsədilə konfrans çərçivəsində iki kitabın – «Dairəvi iqtisadiyyat» və «Akademik yazı» kitablarının nəşri nəzərdə tutulmuşdur.

## «Dairəvi iqtisadiyyat» kitabı

Dairəvi iqtisadiyyat məhsul və materiallardan istifadənin səmərəliliyini maksimallaşdırmaq və bu yolla tullantıları minimuma endirməyə fokuslanır. «Dairəvi iqtisadiyyat» adlı kitabın nəşrində əsas məqsəd resursların daha səmərəli istifadə edilməsinin təşviq olunmasıdır.

Kitabda resursların itkisiz dövr etməsinin necə təmin olunması, bu yanaşmanın əhəmiyyəti, dairəvi iqtisadiyyat modelinin biznes və istehsal sahələrində tətbiqi istiqmətləri, bu modelin şirkətlər üçün səmərəliliyinə dair nümunələr və cəmiyyət üçün sosial faydaları barədə bilikkər təqdim ediləcək.

## «Akademik yazı» kitabı

Akademik yazı kitabının hazırlanmasında əsas məqsəd tələbə və  magistrantların akademik yazı bacarıqlarını inkişaf etdirilməsinə dəstək olmaqdır.

Kitabda akademik yazı üslubları, tədqiqat üzrə hesabatın strukturu və onun hər bir hissəsinin yazılması üzrə biliklər, akademik yazı növləri, akademik etika məsələləri ilə bağlı məlumatlar təqdim olunacaq, təhsilalanların intellektual düşüncə və təhlil bacarıqlarını inkişafına xidmət edəcək tövsiyyələr veriləcək.